# İstedadlılara şərait yaradılır

**Respublikanın hər yerində olduğu kimi Qusarda da gənc nəslin təlim-tərbiyəsinə xüsusi diqqət yetirilir.**

Məktəblər arasında keçirilən yarışlar, şagirdlərin elmi qavrama testlərində iştirakı, idman turnirlərində əldə edilən uğurlar rayonda bu işin düzgün təşkilindən xəbər verir.

Azərbaycan Prezidentinin imzaladığı "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" bölgənin bütün ümumtəhsil müəssisələrində ardıcıl olaraq həyata keçirilir. Yeniyetmələr arasında təşkil edilən yarışlardan biri də "İstedad axtarırıq" müsabiqəsidir. Rayon təhsil müəssisələri ilə yanaşı, mədəniyyət ocaqlarının bədii özfəaliyyət kollektivlərinin də iştirak etdiyi bu yarışma həmişəki kimi böyük rezonans doğurmuşdur. Müsabiqə Azərbaycan xalqının milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, inkişaf etdirmək, gənc nəslin musiqi alətlərinə, mahnı ifaçılığına, rəqsə, bədii qiraətə marağını artırmaq, yeni istedadları üzə çıxarmaq məqsədi daşıyır. Münsiflər heyətinin üzvləri - rayon mədəniyyət evinin direktoru Faiq Qardaşov, rayon tarix-diyarşünaslıq muzeyinin direktoru Xatirə Nağıbəyova, rayon təhsil şöbəsi metodiki mərkəzin müdiri Qorxmaz Muradov və başqaları bu ilki yarışmada daha çox gəncin iştirak etdiyini vurğuladılar. Rəqs, solo və musiqi alətlərində ifa nominasiyaları üzrə keçirilən müsabiqədə birinci yerə Faina Qədimova layiq görüldü. Beşxanım Abdullayeva, Ramiz Xankişiyev, Raziyyə Həsənova, Aynurə Feyzullayeva, Zaur Məhsimov, Gülnarə Məmmədəliyeva və Viktor Hacıağayev müxtəlif diplom və həvəsləndirici mükafatlarla təltif edildilər.

● A.Əliyev